№ 21-22 (829) 30 noyabr 2025-ci il ◦ Qəzet 1991-ci ildən nəşr olunur ◦ www.health.gov.az; ◦ www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



Səhiyyə qanunvericiliyinə dəyişikliklər edildi 2



Nazirlər Kabineti səhiyyə ilə bağlı qərarlarında dəyişikliklər etdi 3



Milli Məclis səhiyyə ilə bağlı qanunlara dəyişiklikləri müzakirə etdi 4

## Prezident İlham Əliyev dərman preparatları istehsalı müəssisəsinin açılışını edib



Beynəlxalq standartlara uyğun layihələndirilən müəssisə Almaniya, İsveçrə və İtaliyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. İl ərzində müəssisədə antibiotiklər, diabetologiya, hepatologiya, kardiologiya, andrologiya, allerqologiya və qastroenterologiya sahələrinə aid təxminən 800 milyon ədəd tablet və kapsul dərman preparatı istehsal olunacaq. Bu məhsullar həm daxili bazara çıxarılacaq, həm də gələcəkdə ixrac ediləcək. Müəssisədə 120 iş yeri yaradılıb. 2



## Yeni Robotik Reabilitasiya və Sümük İliyi Transplantasiyası mərkəzlərinin açılış mərasimi olub

Əsas məqsəd pasiyentlərin funksional müstəqilliyini bərpa etmək, həyat keyfiyyətini yüksəltmək və hərəkət imkanlarını maksimum səviyyəyə çatdırmaq, həmçinin ölkəmizdə əlillik səviyyəsini minimuma endirməkdir. Mərkəz həm ambulator, həm də stasionar müalicə xidmətləri təqdim edir.

Səh. 4

## Bakıda TDT-yə üzv ölkələrin tibb bacısı və mamalıq üzrə I Beynəlxalq elmi-praktik konfransı keçirilib



Səh. 6

Tel: (994 12) 530 15 15
(994 50) 255 15 15
(994 77) 277 22 77
Faks: (994 12) 530 44 44

ARASH
MEDICAL COMPANY



www.arash.az

## Türkiyədə XI Türk Tibb Dünyası Qurultayı keçirilib

*Azərbaycanın səhiyyə naziri Türk dövlətlərinin səhiyyə əməkdaşlığı ilə bağlı təşəbbüslərlə çıxış edib*




...19 ölkənin səhiyyə nazirlərinin, nümayəndə heyətlərinin, tibb sahəsində tanınmış elm adamlarının iştirak etdiyi qurultayda ölkəmizi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti təmsil edib. 7

# Prezident İlham Əliyev dərman preparatları istehsalı müəssisəsinin açılışını edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun Hökməli qəsəbəsində «Scandens Pharmaceutical Industries Ltd» MMC-nin dərman preparatları istehsalı müəssisəsinin açılışında iştirak edib.**







AZƏRTAC xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və baş direktor Kamran Həsənov dövlət başçısına müəssisə barədə məlumat veriblər.

Beynəlxalq standartlara uyğun layihələndirilən müəssisə Almaniya, İsveçrə və İtaliyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. İl ərzində müəssisədə antibiotiklər, diabetologiya, hepatologiya, kardiologiya, andrologiya, allerqologiya və qastroenterologiya sahələrinə aid təxminən 800 milyon ədəd tablet və kapsul dərman preparatı istehsal olunacaq. Bu məhsullar həm daxili bazara çıxarılacaq, həm də gələcəkdə ixrac ediləcək. Müəssisədə 120 iş yeri yaradılıb.

Dəyəri 74 milyon manat olan layihə özəl investisiya hesabına həyata keçirilib. Şirkət İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi hesabına idxal olunan avadanlıqlara görə 6,5 milyon manat güzəşt əldə edib.

Müəssisənin fəaliyyətə başlaması Azərbaycanın əczaçılıq sənayesində yeni inkişaf mərhələsi kimi qiymətləndirilir. Burada xammaldan hazır məhsula qədər dərman preparatlarının istehsalının bütün mərhələləri həyata keçiriləcək. Yeni müəssisə ölkəmizdə əczaçılıq sənayesinin inkişafına və yerli istehsalın gücləndirilməsinə töhfə verəcək. Yerli və beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli məhsulların istehsalı ölkəmizin ixrac imkanlarını da genişləndirəcək.

Müəssisə, eyni zamanda, əczaçılıq sahəsində peşəkar kadrların hazırlanması və əməli bacarıqların inkişafı üçün baza rolunu oynayacaq. «Scandens Pharmaceutical Industries Ltd» MMC, Azərbaycan Tibb Universiteti, Macarıstanın Peç Universiteti və «Panon Pharma»şirkəti arasında imzalanmış dördtərəfli Memorandum çərçivəsində burada əczaçı və qeyri-əczaçı ixtisasları üzrə qısa və uzunmüddətli təlim və təcrübə proqramlarının həyata keçirilməsi nəzərdə tutulub.

Prezident İlham Əliyev müəssisəni işə salıb.

Müəssisənin damında ümumi gücü 450 kVtsaat olan 710 ədəd Günəş paneli quraşdırılıb ki, enerji sərfiyyatının təxminən 40 faizi bu panellər vasitəsilə ödənəcək.




# Səhiyyə qanunvericiliyinə dəyişikliklər edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi ««Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Qanunu imzalayıb.

Sənədə əsasən, «Tibbi sığorta haqqında» Qanunda bir sıra dəyişikliklər edilib.

O cümlədən, 15-2.1-ci maddəyə «himayəyə götürülmüş» sözlərindən sonra «, habelə həbs edilmiş, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən (məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkənlər istisna olmaqla)» sözləri əlavə edilib. 15-2.3-cü maddədən isə «həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrumetmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələri istisna olmaqla),» sözləri çıxarılıb.

Qanuna aşağıdakı məzmunda 2 maddə əlavə edilib:

«15-2.4. Həbs edilmiş şəxslərə, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər istisna olmaqla) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tibbi xidmətlərin göstərilməsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) zəruri tibbi avadanlıq və (və ya) müvafiq sahə üzrə işçilərinin olmaması səbəbindən mümkün olmadıqda, həmin şəxslərə icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərin göstərilməsi bu Qanunun 15-17.2.3-3-cü maddəsi nəzərə alınmaqla həyata keçirilir.».

«15-17.2.3-3. xidmətlər zərfinin həbs edilmiş şəxslər, müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəza çəkən şəxslərə (məntəqə tipli cəzaçəkmə müəssisələrində cəza çəkən şəxslər istisna olmaqla) münasibətdə tətbiqi şərtləri;».

Dövlət başçısı həmçinin «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2025-ci il 24 oktyabr tarixli 276-VIIQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman da verib.

Sənədə əsasən, ««Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» yeni Qanunun qüvvəyə minməsi ilə əlaqədar, onun tətbiqini təmin etmək məqsədilə müəyyən olunub ki, «Tibbi sığorta haqqında» Qanunun 15-2.4-cü maddəsində hər iki halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, «orqan (qurum)» dedikdə isə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

Həmçinin ««Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və «Tibbi sığorta haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanının 6-cı hissəsində də müvafiq dəyişikliklər edilib.

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 may tarixli 97 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası»nda dəyişiklik edilməsi haqqında

***Azərbaycan Respublikası Prezidentinin Fərmanı***

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 may tarixli 97 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 965 (Cild I); 2025, № 8, maddə 762) ilə təsdiq edilmiş «İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin investisiya əməliyyatlarının aparılması Qaydası»nın 3.4-cü bəndindən «, «Dövlət satınalmaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalma müqaviləsi bağlanmış və» sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 noyabr 2025-ci il*

## Hərbi həkimlər təltif edildilər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəfər Günü ilə əlaqədar olaraq «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında» Sərəncam verib.**

Sənədə əsasən, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusu fəxri ad, orden və medallarla mükafatlandırılıb. Onların arasında hərbi tibb xidmətinin nümayəndələri də var.

Belə ki, tibb xidməti polkovniki Hüseyn İsbəndiyar oğlu Əliyev «Döyüşdə fərqlənməyə görə» medalı ilə, tibb xidməti polkovniki Vüqar Murad oğlu Paşayev və tibb xidməti kapitanı İlqar Vüqar oğlu Namazov «Hərbi xidmətlərə görə» medalı ilə təltif olunublar.

# Nazirlər Kabineti səhiyyə ilə bağlı qərarlarında dəyişikliklər etdi

Nazirlər Kabineti özünün səhiyyə ilə əlaqəli bir sıra qərarlarında dəyişikliklər edilməsi ilə bağlı qərarlar qəbul edib.

Baş nazir Əli Əsədovun imzaladığı ilk belə qərar «Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 17 nömrəli Qərarı ilə təsdiq edilmiş «Hemofiliya və talassemiya irsi qan xəstəlikləri olan şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası»nda dəyişiklik edilməsi haqqındadır.

Qərara əsasən, Qaydanın 1.4-cü hissəsində «Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumlarına» sözləri «Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş «Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası» ilə müəyyən edilmiş qaydada» sözləri ilə əvəz edilib və həmin hissəyə «sanatoriya-kurort yollayışları» sözlərindən sonra «(bundan sonra - yollayış)» sözləri əlavə olunub.

Qaydanın 7-ci hissəsi isə aşağıdakı redaksiyada verilib: «Yollayışların uçotunun aparılması, onlara dair hesabatların təqdim edilməsi, habelə mühasibat uçotu sənədlərinin saxlanılması qanunvericiliklə müəyyən edilmiş qaydada təmin edilir».

Qəbul edilmiş ikinci qərar ««Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 sentyabr tarixli 211 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında» adlanır. Sənəddə Nazirlər Kabinetinin 2012-ci il 25 sentyabr tarixli 211 nömrəli Qərarı ilə təsdiq edilmiş 3 nömrəli əlavə - «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası»nda aşağıdakı dəyişikliklər edilməsi öz əksini tapıb:

Qaydanın 6-cı hissəsində «işləyənlər iş yerindən, işləməyənlər isə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumları və ya «DOST» mərkəzləri tərəfindən təmin edilirlər» sözləri «Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş «Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası»na əsasən təmin olunurlar» sözləri ilə əvəz edilib.

Qaydanın 9-cu hissəsi aşağıdakı redaksiyada verilib: ««Geri qayıtma» talonu sanatoriya-kurort müəssisəsi tərəfindən aidiyyəti quruma təhvil verilməlidir. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinə və «DOST» mərkəzlərinə təhvil verilmiş «Geri qayıtma» talonunun 3 (üç) iş günü müddətində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin «Sanatoriya-kurort» altsistemi vasitəsilə qeydiyyatı aparılır və onun sanatoriya-kurort putyovkasından istifadəsini təsdiq edən sənəd kimi saxlanılması təmin edilir. İşləyən şəxslərə münasibətdə isə «Geri qayıtma» talonunun qeydiyyatının aparılması və onun saxlanılması məsələləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş «Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə»nin 141-ci bəndinə uyğun təmin edilir».

## «Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiyası Qaydasının, o cümlədən sınaq imtahanında iştirak haqqının məbləğinin və davamlı peşəkar inkişaf üzrə minimum kreditin həcmi»nin təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası»nın təsdiq edilməsi haqqında» 2010-cu il 8 iyun tarixli 108 nömrəli və «Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən sertifikasiya şəhadətnaməsinin forması»nın təsdiq edilməsi haqqında» 2010-cu il 12 iyun tarixli 111 nömrəli qərarlarının ləğv edilməsi barədə

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, «Azərbaycan Respublikasının Əmək Məcəlləsində, «Əhalinin sağlamlığının qorunması haqqında», «Özəl tibb fəaliyyəti haqqında» və «Dərman vasitələri haqqında» Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 213-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 438 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** «Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiyası Qaydası» təsdiq edilsin (Əlavə olunur).

**2.** Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiya imtahanının sınaq imtahanında iştirak haqqının məbləği tibb və ya səhiyyə ixtisasları üzrə ali təhsili olan tibb mütəxəssisləri üçün 35 (otuz beş) manat, orta ixtisas təhsili olan tibb mütəxəssisləri üçün 25 (iyirmi beş) manat təsdiq edilsin.

**3.** Davamlı peşəkar inkişaf üzrə minimum kreditin həcmi hər il orta hesabla 50 (əlli) kredit olmaqla 5 (beş) il ərzində minimum 250 (iki yüz əlli) kredit təsdiq edilsin.

**4.** Bu Qərar qüvvəyə mindiyi gündək sertifikasiya şəhadətnaməsinin qüvvədəolma müddəti başa çatmamış tibb mütəxəssisləri minimum 250 (iki yüz əlli) kreditdən hər il üzrə nəzərdə tutulmuş orta illik hesabla 50 (əlli) krediti topladıqda, sertifikasiya şəhadətnaməsinin qüvvədəolma müddətinə bir ildən az qalmış tibb mütəxəssisləri 50 (əlli) krediti topladıqda şəhadətnamə əldə etsinlər.

**5.** «Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 8 iyun tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 553 (Cild I); 2024, № 5 (II kitab), maddə 612; 2025, № 5, maddə 507) ləğv edilsin.

**6.** «Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiq edən sertifikasiya şəhadətnaməsinin forması»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 556 (Cild I) ləğv edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 26 noyabr 2025-ci il*

***Nazirlər Kabinetinin bu Qərarı ilə təsdiq edilmiş «Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiyası Qaydası» ilə bu linkdə tanış olmaq mümkündür:***

*https:tibbqazeti.azazresmi3408-praktik-tibb-v%C9%99-ya-%C9%99cza%C3%A7%C4%B1l%C4%B1q-f%C9%99aliyy%C9%99ti-il%C9%99-m%C9%99%C5%9F%C4%9Ful-olan-v%C9%99-ya-bu-f%C9%99aliyy%C9%99tl%C9%99-m%C9%99%C5%9F%C4%9Ful-olmaq-ist%C9%99y%C9%99n-%C5%9F%C9%99xsl%C9%99rin-sertifikasiyas%C4%B1-qaydasi.html*

# Milli Məclis səhiyyə ilə bağlı qanunlara dəyişiklikləri müzakirə etdi

**Noyabr ayında Milli Məclisin 2025-ci ilin payız sessiyasında növbəti plenar iclasları keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclaslarda «Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında» qanun layihəsi və Büdcə zərfinə daxil olan sənədlər müzakirə olunub və birinci oxunuşda qəbul edilib.

Müzakirəyə çıxarılan daha bir məsələ Azərbaycan Respublikasının Vergi Məcəlləsində, «Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında», «Sosial sığorta haqqında», «Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında», «Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında», «Tibbi sığorta haqqında», «Dövlət rüsumu haqqında», «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında», «Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında», «Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında», «Sığorta fəaliyyəti haqqında», «İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında», «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında», «Uşaqların icbari dispanserizasiyası haqqında», «Gömrük tarifi haqqında», «Nağdsız hesablaşmalar haqqında» və «Əlilliyi olan şəxslərin hüquqları haqqında» qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) olub.



Qanun layihəsini təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, Vergi Məcəlləsinə və əlavə 16 qanunvericilik aktına dəyişikliklər edilməsini nəzərdə tutan bu layihə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında geniş müzakirə olunub, aidiyyəti qurumlar tərəfindən əhatəli təqdimatlar edilib.

Parlamentin sədri bu qanun layihəsinə daha 6 komitədə baxıldığını qeyd edib və sonra həmin komitələrin rəyləri səsləndirilib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov sənəddə rəhbərlik etdiyi komitəyə aid qanunlara edilən dəyişikliklərin geniş müzakirə olunduğunu və müsbət dəyərləndirildiyini nəzərə çatdırıb.

Müzakirələrin yekununda qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

# Yeni Robotik Reabilitasiya və Sümük İliyi Transplantasiyası mərkəzlərinin açılış mərasimi olub

**Yeni Klinikada Yeni Robotik Reabilitasiya və Sümük İliyi Transplantasiyası mərkəzlərinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Əvvəlcə Yeni Robotik Reabilitasiya Mərkəzi ilə tanışlıq keçirilib. Bildirilib ki, 3 600 kvadratmetr ərazidə yerləşən Yeni Robotik Reabilitasiya Mərkəzi Azərbaycanın reabilitasiya sahəsində texnoloji inqilab yaradan ilk mərkəzlərindən biridir.

Əsas məqsəd pasiyentlərin funksional müstəqilliyini bərpa etmək, həyat keyfiyyətini yüksəltmək və hərəkət imkanlarını maksimum səviyyəyə çatdırmaq, həmçinin ölkəmizdə əlillik səviyyəsini minimuma endirməkdir. Mərkəz həm ambulator, həm də stasionar müalicə xidmətləri təqdim edir.

Müəssisədə ümumilikdə 3 həkim-fizioterapevt, 1 həkim-travmatoloq, 4 həkim-nevroloq, 4 təcili və təxirəsalınmaz tibbi yardım üzrə həkim, 9 müalicəvi bədən tərbiyəsi (MBT) təlimatçısı, 32 fizioterapevt-reabilitoloq, 17 tibb bacısıqardaşı, 2 masaj üzrə tibb bacısıqardaşı və 20 kiçik tibb işçisi fəaliyyət göstərir.

Mərkəzin Neyrotravma şöbəsində kəllə-beyin və onurğa-beyin travmaları, eləcə də ölkənin müxtəlif tibb müəssisələrindən reanimasiyadan sonra reabilitasiyaya ehtiyacı olan vətəndaşların stasionar müalicəsinin həyata keçirilməsi nəzərdə tutulub.

Bundan əlavə, mərkəzdə bir sıra sahələr üzrə robotik və klassik reabilitasiya xidmətləri təqdim olunur. Nevrologiya istiqamətində insult, beyin və onurğa beyni zədələnmələri, həmçinin sinir sistemi xəstəliklərindən sonra bərpa prosesi aparılacaq.



Ortopedik reabilitasiya çərçivəsində travmalardan və ortopedik əməliyyatlardan sonra hərəkətin bərpası təmin ediləcək.

Pediatrik və neonatoloji reabilitasiya uşaqlarda hərəkət, inkişaf və koordinasiya pozuntularının erkən korreksiyasına yönəlib. İdmanda reabilitasiya xidməti idman zədələrindən sonra funksional hazırlığın və performansın bərpası məqsədi daşıyır.

Əl reabilitasiyası sahəsində əl cərrahiyyəsi və yuxarı ətrafların motor funksiyalarının inkişafı, eləcə də incə hərəkətlərin bərpası həyata keçiriləcək. Kardiopulmonar reabilitasiya ürək-damar və tənəffüs sistemi xəstəliklərindən sonra fiziki dözümlülüyün artırılmasına xidmət edir. Geriatrik reabilitasiya isə yaşlı pasiyentlərdə hərəkət imkanlarının genişləndirilməsi və həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlib.

Onkoloji reabilitasiya onkoloji müalicələrdən sonra fiziki və psixoloji adaptasiyanın təmin edilməsini əhatə edir. Bundan əlavə, ginekoloji və androloji reabilitasiya kiçik çanaq disfunksiyalarında, kiçik çanaq əzələlərinin funksional bərpası, gücünün və elastikliyinin artırılması məqsədilə tətbiq olunan hədəfli fizioterapevtik yanaşma ilə həyata keçiriləcək. Onurğa sağlamlığı xidmətləri onurğa sütunu problemlərinin qarşısının alınmasına və müalicəsinə istiqamətlənib.

Reanimasiya və intensiv terapiyada reabilitasiya ağır vəziyyətdən çıxmış pasiyentlərin erkən mərhələdə bərpasını təmin edir və hədəf Azərbaycandakı böyük dövlət xəstəxanalarında reanimasiya şəraitində reabilitasiya xidmətlərinin gücləndirilməsidir.

Yeni Robotik Reabilitasiya Mərkəzi dünyada həm robotik, həm də klassik reabilitasiya sahəsində lider mövqeyini möhkəmləndirməyi, elmi və texnoloji yenilikləri reabilitasiya proseslərinə inteqrasiya edərək Azərbaycanı innovativ reabilitasiya mərkəzinə çevirməyi qarşısına məqsəd qoyur. Həmin istiqamətdə beynəlxalq akkreditasiyalar üçün rəsmi danışıqlara artıq başlanılıb.

Mərkəzin üstünlüklərinə dünya səviyyəli robotik lokomasiya və yuxarı ətraf reabilitasiya sistemləri, 3D hərəkət analizi, balans və koordinasiya ölçmə texnologiyaları, süni intellekt əsaslı qiymətləndirmə və fərdiləşdirilmiş reabilitasiya alqoritmləri, fizioterapevtlər, reabilitoloqlar, neyroloqlar, ortopedlər, psixoloqlar və erqoterapevtlərdən ibarət multidisiplinar komanda, eləcə də beynəlxalq təlim, sertifikasiya və elmi əməkdaşlıq imkanları daxildir. Bütün bu xüsusiyyətləri ilə mərkəz Azərbaycanın reabilitasiya sahəsində texnoloji inqilab yaradan, həm ambulator, həm də stasionar müalicə xidmətləri təqdim edən qabaqcıl bir qurum kimi fəaliyyətə başlayır.

Daha sonra Sümük İliyi Transplantasiyası Mərkəzinə baxış keçirilib. Qeyd olunub ki, mərkəz müasir tələblərə cavab verən yüksək ixtisaslaşmış tibbi mərkəz kimi formalaşdırılıb. Şöbənin hemato-onkoloji xəstəliklərin müalicəsində ən son elmi nailiyyətləri tətbiq edən, geniş təcrübəyə malik multidisiplinar komanda tərəfindən idarə olunması planlaşdırılır.

Tibbi xidmətlər çərçivəsində qeyd olunan diaqnozlarla müalicə alan pasiyentlər üçün həm allogen, həm də autogen sümük iliyi transplantasiyasının həyata keçirilməsi nəzərdə tutulur.

Mərkəz 22 çarpayılıq şöbə ilə böyüklər və uşaqlar üçün fəaliyyət göstərəcək. Həm autogen, həm də allogen sümük iliyi transplantasiyası beynəlxalq protokollara uyğun şəkildə həyata keçiriləcək. Leykoz, talassemiya, aplastik anemiya, limfoma və mieloma kimi xəstəliklərdən əziyyət çəkən pasiyentlər üçün bu mərkəz yüksəksəviyyəli, inteqrasiya olunmuş müalicə şəraiti yaradacaq və xaricə bağlılığı əhəmiyyətli dərəcədə azaldacaq.

Transplantasiya blokları müasir sterilizasiya standartlarına cavab verən HEPA filtrasiyalı hava axını, tam izolyasiya rejimi və yüksəksəviyyəli infeksion nəzarət sistemi ilə təchiz edilib.

Mərkəzin əsas məqsədi pasiyentlərə təhlükəsiz, effektiv və yüksəkkeyfiyyətli müalicə təqdim etmək, elmi yenilikləri praktikaya gətirmək və ölkədə sümük iliyi transplantasiyası xidmətlərinin əlçatanlığını artırmaqdır.

Yeni yaradılmış mərkəz ilə tibb müəssisəsi hemato-onkoloji xəstəliklərin müalicəsində daha geniş imkanlar yaradacaq və müasir tibb standartlarının tətbiqində nümunəvi səhiyyə ocağı kimi fəaliyyət göstərməyə davam edəcək.

# Milli Məclis komitələrinin birgə iclasında 2026-cı ilin dövlət büdcəsi layihəsi müzakirə olunub



**Milli Məclisdə parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya, Əmək və sosial siyasət, Səhiyyə, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin birgə iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov iclasda «Azərbaycan Respublikasının 2026-ci il dövlət büdcəsi haqqında» qanun layihəsinin birinci oxunuşda müzakirəyə çıxarıldığını deyib. O, Konstitusiyamıza əsasən ölkənin və vətəndaşların təhlükəsizliyinin təmin edilməsinin, insanların rifahının yaxşılaşdırılmasının dövlətin ali məqsədlərindən olduğunu bildirib, 2026-cı il dövlət büdcəsinin layihəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün lazımi iqtisadi və maliyyə əsaslarının təmin edildiyini söyləyib.

Ölkəmizin 2026-ci il üçün dövlət büdcəsinin həm gəlirlərində, həm xərclərində artımın müşahidə edildiyini, bu büdcənin də ənənəvi olaraq sosialyönümlü olduğunu qeyd edən Əli Əhmədov növbəti ilin dövlət büdcəsində sosialyönümlü xərclərin xüsusi çəkisinin 43 faiz olduğunu deyib. Büdcənin həyatın bütün sahələrində qarşıda qoyulan vəzifələrin icrası üçün lazımi təminat yaratdığını bildirib.

Sonra iclasda maliyyə naziri Sahil Babayev «Azərbaycan Respublikasının 2026-ci il dövlət büdcəsi haqqında» qanun layihəsini təqdim edib. O, bildirib ki, növbəti ilin büdcəsi hazırlanarkən makroiqtisadi və fiskal dayanıqlıq, monetar sabitlik prinsipləri, habelə ölkəmizin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi məsələləri əsas götürülüb. Bununla yanaşı, əhalinin sosial rifahının gücləndirilməsi istiqamətində tədbirlərin təmin edilməsi həm dövlət büdcəsi, həm də icmal büdcə çərçivəsində nəzərdə tutulub. Eyni zamanda, Qarabağ və Şərgi Zəngəzur iqtisadi rayonlarının inkişafı, keçmiş məcburi köçkünlərin bu ərazilərə geri qayıtması üçün maliyyə təminatı yaradılıb.

Nazir əsas maktoiqtisadi göstəricilər, büdcə gəlirləri və xərcləri ilə bağlı məlumat verib. Büdcənin müxtəlif istiqamətlər üzrə xərcləri barədə qeyd edilib ki, sosialyönümlü xərclər 17,1 milyard manat, təhsil sahəsində xərclər 5 milyard manat, sosial müdafiə və sosial təminat xərcləri 4,9 milyard manat, səhiyyə xərcləri dövlət büdcəsində 2 milyard manat, icmal səhiyyə xərcləri isə 3,7 milyard manat məbləğində müəyyən edilib.

O, dövlət büdcəsinin və icmal büdcənin 2026-ci il və 2026-2029-cu illər üzrə təqdim edilmiş layihəsinin ölkənin növbəti ildə və ortamüddətli dövrdə dayanıqlı inkişafı üçün lazımi təminatlar yaratdığını bildirib.

AZƏRTAC xəbər verir ki, Sahil Babayev növbəti ilin büdcə xərclərində onkologiya ilə bağlı müxtəlif tədbirlər üzrə 118 milyon manat vəsait nəzərdə tutulduğunu deyib, bunun 2025-ci illə müqayisədə 10 faizlik artım demək olduğunu söyləyib: «Yəni dinamikamız müsbətdir. Ehtiyacımız daha böyükdür, müzakirə edirik. Hazırda icbari tibbi sığorta zərfinin daha da genişləndirilməsi istiqamətində böyük addım atırıq. Buraya səkkiz müxtəlif istiqamət daxil edilib. Gələcəkdə digər istiqamətlərin də zərfə daxil edilməsini birmənalı olaraq istəyirik. Əlbəttə, təqdim olunan prioritetlərdən, əhatə etdiyi insan sayından, müxtəlif effektivlik göstəricilərindən asılı olaraq hər bir istiqamət müzakirə ediləcək və növbəti dövrlərdə bu məsələlər təmin olunacaq».



İclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Anar Axundov vurğulayıb ki, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar sayəsində Azərbaycan sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, mühüm geosiyasi və geoiqtisadi mövqe tutan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilib. O nəzərə çatdırıb ki, ölkə başçısının müvafiq Sərəncamına əsasən «Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası» və «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı»nın hazırlanması istiqamətdə intensiv işlər görülür.

Tədbirdə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Azərbaycan Respublikasının 2026-ci il üçün dövlət büdcəsi layihəsinə dair Palatanın rəyini açıqlayıb.

İclasda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev çıxış edərək vurğulayıb ki, Azərbaycan Prezidenti tərəfindən müəyyən edilən siyasətə uyğun olaraq, əhalinin sosial rifahının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi, hər bir vətəndaşımıza layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə geniş islahatlar proqramı həyata keçirilir.

Daha sonra səhiyyə naziri Teymur Musayev çıxış edib. O, qeyd edib ki, həyata keçirilən dövlət siyasətinin əsas məqsədi vətəndaşların sosial rifahının yüksəldilməsidir. Nazir vurğulayıb ki, sağlam vətəndaşlar ölkənin sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Bu məqsədlə səhiyyə sektoruna ayrılan büdcə vəsaitləri ildən-ilə artır, səhiyyə infrastrukturu yenilənir və müasir çağırışlara uyğunlaşdırılır.

Bildirilib ki, 2026-cı il dövlət büdcəsində səhiyyə bölməsi üzrə xərclər ümumi büdcə xərclərinin 4,9 faizini təşkil edir. O cümlədən, 2026-cı il üçün Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə 274,5 milyon manat vəsait ayrılması nəzərdə tutulub.

Nazir bildirib ki, 2026-cı ildə beş dövlət proqramı çərçivəsində Səhiyyə Nazirliyinə 91,1 milyon manat vəsait ayrılması planlaşdırılır. Qeyd olunub ki, «2023-2027-ci illər üzrə uşaqlar arasında yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı» üzrə maliyyələşmə əvvəlki illə müqayisədə 6 milyon manat və ya 21,1 faiz artmışdır.

Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən, uşaqların ən azı 90 faizinin peyvəndlə əhatə olunması hər bir ölkənin əsas səhiyyə göstəricilərindən biri sayılır. 2026-cı ilin sonunda ölkəmizdə bu göstəricinin 95 faizə çatdırılması nəzərdə tutulur.

Sonra iclasda çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov səhiyyə, sosial, xarici siyasət və ekologiya sahələrinə ayrılan vəsaitlərin həcminin artırılmasını ölkəmizdə aparılan uğurlu iqtisadi siyasətin nəticəsi kimi dəyərləndiriblər. Komitə sədrləri icbari tibbi sığortanın əhatə etdiyi müalicə, tibbi əməliyyat və dərman vasitələrinin sayının artırılması, Azərbaycanın sosial siyasət və xarici siyasət sahəsindəki uğurları və digər məsələlərlə bağlı fikirlərini bildiriblər, qeyd və təkliflərini səsləndiriblər.

Qanun layihəsinin müzakirəsi zamanı çıxış edən deputatlar 2026-cı ilin dövlət büdcəsindəki artımları yüksək qiymətləndiriblər, bir sıra məsələlər barədə təkliflərini diqqətə çatdırıblar.

Sonra maliyyə naziri Sahil Babayev deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, onların suallarını cavablandırıb.

İclasda iştirak edən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev deputatların səsləndirdikləri fikirlərə münasibət bildirib, onların suallarını cavablandırıb. Zaur Əliyev ölkəmizdə ilkin səhiyyə xidmətinin inkişafı sahəsində görülən işlər, həyata keçirilən pilot layihələr, kəndlərdə tibb məntəqələrinin yenidən qurulması sahəsindəki tədbirlər, kadr təminatının tənzimlənməsi və digər məsələlər barədə iclas iştirakçılarına məlumat verib.

Sonra səhiyyə naziri Teymur Musayev səhiyyə sahəsi ilə bağlı qaldırılan məsələlərə münasibətini açıqlayıb.

Tədbirə yekun vuran Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov bu iclasda 2026-cı ilin dövlət büdcəsinin geniş müzakirə olunduğunu və büdcə layihəsi barədə dəyərli fikirlər səsləndirildiyini diqqətə çatdırıb.

İclasın sonunda «Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında» qanun layihəsi Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirəyə tövsiyə olunub.

# Bakıda TDT-yə üzv ölkələrin tibb bacısı və mamalıq üzrə I Beynəlxalq elmi-praktik konfransı keçirilib

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin dəstəyi və nazirliyin 2 nömrəli Bakı Baza Tibb Kollecinin təşkilatçılığı ilə Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin tibb bacısı və mamalıq sahələri üzrə I Beynəlxalq elmi-praktik konfransı keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, beynəlxalq tədbirdə dövlət qurumlarının rəhbər şəxsləri, deputatlar, Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğızıstanın ölkəmizdəki səfirləri, səhiyyə sektorunun rəsmi nümayəndələri, Azərbaycanda və xaricdə fəaliyyət göstərən ali və orta tibb təhsili müəssisələrinin təmsilçiləri, aparıcı səhiyyə müəssisələrinin rəhbərləri, həmçinin TDT-yə üzv ölkələrin səhiyyə sahəsində tanınmış elm adamları iştirak ediblər.

Əvvəlcə beynəlxalq konfransın iştirakçıları Fəxri xiyabana gələrək, Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də tər çiçəklər düzülüb.

Qonaqlar Şəhidlər xiyabanını ziyarət edərək, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsini hörmət və ehtiramla anıb, «Əbədi məşəl» abidəsinin önünə tər gül dəstələri düzüblər.

Beynəlxalq elmi-praktik konfransın iştirakçıları həmçinin Zəfər parkını ziyarət ediblər. Qonaqlara Vətən müharibəsindəki tarixi Qələbəmizi əks etdirən ekspozisiya barədə məlumat verilib və abidə önünə gül dəstələri qoyulub.

Daha sonra Türk Dövlətləri Təşkilatına üzv ölkələrin tibb bacısı və mamalıq sahələri üzrə I Beynəlxalq elmi-praktik konfransının açılış mərasimi keçirilib.

Giriş sözü ilə çıxış edən səhiyyə naziri Teymur Musayev tədbirin mahiyyətini vurğulayaraq, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda tibb təhsilinə böyük diqqət yetirdiyini diqqətə çatdırıb: «Ulu Öndərin göstərişi ilə 2 nömrəli Bakı Tibb Məktəbi üçün yeni bina tikilib. Bu, Ümummilli Lider Heydər Əliyevin səhiyyəyə, tibb təhsilinə, orta tibb personalının hazırlığına verdiyi böyük diqqətin təzahürü idi».

Hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik siyasəti və gərgin zəhməti sayəsində ölkəmizdə hər sahənin inkişaf etdiyini vurğulayan nazir deyib: «Bu tərəqqi ölkə səhiyyəsinin timsalında bariz şəkildə görünür. Azərbaycanın Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın irəli sürdüyü humanitar təşəbbüslər və qayğıya ehtiyacı olan şəxslərə sonsuz diqqəti bu sahənin inkişafında mühüm rol oynayır.

Səhiyyənin inkişafının əsas şərti və aparıcı qüvvəsi onun yüksək hazırlıqlı kadr potensialıdır. İxtisaslı həkimlərin və orta tibb işçilərinin hazırlığı səhiyyəmizin qarşısında ən ümdə vəzifə kimi dayanır. Bu vəzifəni layiqincə yerinə yetirmək üçün ölkəmizdə tibb təhsilinin keyfiyyətinə daim xüsusi diqqət ayrılır. Səhiyyə sahəsində aparılan islahatlar, maddi-texniki bazanın möhkəmləndirilməsi, müasir cihazlarla təchizat, rəqəmsallaşma və yeni texnologiyaların tətbiqi kadr potensialının gücləndirilməsini tələb edir. Bu isə tibb təhsili qarşısında yeni çağırışlar və vəzifələr qoyur. Dövlət başçısının yüksək dərəcəli ali və orta tibb kadrlarının hazırlığı üzrə siyasəti ali və orta ixtisas tibb təhsili üçün şəraitin yaradılmasında, tibb kadrlarının təkmilləşdirilməsi imkanlarının genişləndirilməsində təzahür edir.

Zamanın tələblərinə cavab verən keyfiyyətli tibb xidmətlərinin göstərilməsi orta tibb işçilərinin fəaliyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Ölkə səhiyyəsinin bugünkü inkişafında onların zəhməti böyükdür».

Teymur Musayev Səhiyyə Nazirliyinin 2 nömrəli Bakı Baza Tibb Kollecinin kollektivinin orta ixtisas tibb kadrlarının müasir tələblərə uyğun səviyyədə yetişdirilməsi yolunda yorulmadan çalışdığını diqqətə çatdırıb: «Kollecin tədris proqramları beynəlxalq standartlara uyğun mütəmadi şəkildə yenilənir. Təhsil müəssisəsi ölkəmizdəki digər tibb kolleclərinə metodik dəstək göstərir. Bu gün bu qabaqcıl tibb təhsili ocağının qarşısında ölkə səhiyyəsi üçün savadlı, bacarıqlı, dünya təbabətinin yeniliklərindən xəbərdar olan, yüksək ixtisaslı orta tibb mütəxəssisləri hazırlamaq vəzifəsi dayanır. Əminəm ki, kollecin müəllim kollektivi bundan sonra da əzmlə çalışacaq, şərəfli və məsuliyyətli vəzifənin öhdəsindən layiqincə gələcək».



Nazir vurğulayıb ki, hazırda türk dövlətləri arasında tibb təhsili və səhiyyə sahəsində əməkdaşlıq güclənir. Onun sözlərinə görə, konfrans Türk Dövlətləri Təşkilatının səhiyyə və tibb bacısı-mamalıq sahəsində əməkdaşlığının genişlənməsinə mühüm töhfə verəcək. Dövlət başçısının «Bizim ailəmiz Türk dünyasıdır» fikrini xatırladan Teymur Musayev TDT-nin üzv ölkələri ilə əlaqələrin inkişafının Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən olduğunu deyib: «Bu gün biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin: «Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir» ifadəsinin uğurla reallaşmasının şahidiyik: Əminəm ki, hər birimiz bu istiqamətdə səylərimizi birləşdirib, çoxsaylı uğurlara birgə imza atacağıq», - deyə səhiyyə naziri fikrini tamamlayıb.

Tədbirdə çıxış edən Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov TDT-nin üzv ölkələrinin tibb bacısı və mamalıq sahələri üzrə I Beynəlxalq elmi-praktik konfransının Bakıda keçirilməsinin önəmindən söz açıb.

AZƏRTAC-ın verdiyi məlumata görə, Əhliman Əmiraslanov qeyd edib ki, bu gün orta tibb işçisi bir neçə il bundan qabaqkı kimi bir mütəxəssis deyil, onlara olan tələblər kifayət qədər artıb və artmaqda davam edir: «Əgər bir neçə il bundan əvvəl orta tibb bacısı həkimin dediyi hər hansı tapşırıqları icra edirdirsə, bu gün bu sahədə çalışan mütəxəssislər bu və ya digər xəstəliklərin, patologiyaların müayinəsi və müalicəsinin iştirakçısıdır». O bildirib ki, dünyada bu mütəxəssislərə münasibət başqadır: «Belə mütəxəssislərin hazırlanmasına diqqət yetirilməlidir. Azərbaycanda bu sahədə kifayət qədər işlər həyata keçirilir. Orta tibb təhsilinin qanunvericilik bazasının möhkəmləndirilməsində iştirak etməyə həmişə hazırıq. Xəstələr ambulator müalicəyə buraxıldıqdan sonra ev şəraitində onlara nəzarət orta tibb işçilərinin üzərinə düşür. İmmunizasiya, reabilitasiya prosesində ən böyük yük onların çiyinlərindədir».

Səhiyyə komitəsinin sədri qeyd edib ki, ölkəmizdə yüksəkixtisaslı orta tibb işçilərinin hazırlanmasına böyük ehtiyac var: «Türkiyənin bu sahədə təcrübəsi böyükdür. Qardaş türk dövlətləri bu sahədə bir-birinin təcrübəsindən yararlanmalıdırlar. Qardaş Türkiyənin səhiyyəsindən, onların təcrübəsindən, proqramlarından, tədris metodikalarından yararlanmalıyıq. Ölkəmizdə orta tibb işçilərini hazırlayacaq özəl müəssisələrin açılmasına ehtiyac var. Gələcəkdə maddi-texniki bazası olan kolleclərin açılmasına, bu sahədə professor, müəllim heyətlərinin kolleclərdə öz təcrübələrini bölüşməsinə ehtiyac var», - deyə o qeyd edib.

Səhiyyə Nazirliyinin 2 nömrəli Bakı Baza Tibb Kollecinin direktoru Dilarə Məmmədəliyeva çıxışında qeyd edib ki, konfransın məqsədi tibb bacıları və mamaların səhiyyədə oynadığı mühüm rolu vurğulamaq, onların peşəkar inkişafının dəstəklənməsinə şərait yaratmaq və bu sahələrin inkişafı ilə bağlı aktual məsələlərin müzakirəsini təmin etməkdir. O, son illərdə səhiyyə və tibb təhsili sahəsində aparılan islahatlar nəticəsində tibb bacısı və mamalıq peşələrinin inkişafına müasir və sistemli yanaşmanın formalaşdığını deyib: «Beynəlxalq təcrübənin tətbiqi, əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, tibb təhsilinin təkmilləşməsi istiqamətində Səhiyyə Nazirliyi tərəfindən ardıcıl və məqsədyönlü layihələr həyata keçirilir. Görülən tədbirlər səhiyyə xidmətinin keyfiyyətinin artırılması və tibb təhsilinin beynəlxalq standartlara uyğunlaşdırılmasında mühüm rol oynayır. Əminik ki, bugünkü konfransda qurulan əlaqələr, müzakirə edilən mövzular gələcəkdə həm tibb təhsili, həm də səhiyyə sahəsində birgə uğurlara öz töhfəsini verəcək».

Dilarə Məmmədəliyeva tədbirin yalnız akademik deyil, həm də tarixi əhəmiyyət daşıdığını qeyd edib: «Prezident İlham Əliyevin də bildirdiyi kimi, son illərdə Türk Dövlətləri Təşkilatının xətti ilə aparılan işlər birliyimizi daha da gücləndirir. Bu konfrans gələcək əməkdaşlıq üçün real imkanlar yaradır. Konfransın əsas məqsədi türkdilli ölkələrdə tibb bacısı və mamalıq sahələri üzrə inkişafın yeni istiqamətlərini müəyyənləşdirmək, həmçinin bu peşənin cəmiyyətdə oynadığı əvəzsiz rolu bir daha diqqətə çatdırmaqdır. Çünki tibb bacısı və mamalıq təkcə peşə deyil, mərhəmət, humanizm və yüksək məsuliyyət hissi ilə bağlı müqəddəs missiyadır».

Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün iki ölkənin səhiyyə sistemini müqayisə edərək, təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb: «Türkiyədə tibb daha çox müalicəyə yönələrək inkişaf edib. Lakin sizdən öyrənəcəyimiz çox şey var. Bunlardan ən başlıcası, bəzən diqqətdən kənarda qalan profilaktik tibbdir. Sizin qoruyub saxladığınız, bizim daha çox diqqətdən kənarda qoyduğumuz, təkcə müasir deyil, həm də ənənəvi profilaktik tibb sahəsində çox mühüm biliklərə sahibsiniz.



*(Ardı 8-ci səhifədə)*

# Türkiyədə XI Türk Tibb Dünyası Qurultayı keçirilib

*Azərbaycanın səhiyyə naziri Türk dövlətlərinin səhiyyə əməkdaşlığı ilə bağlı təşəbbüslərlə çıxış edib*






**Türkiyənin paytaxtı Ankara şəhərində Türkiyə Respublikası Prezidentinin himayəçiliyi və bu dövlətin Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə XI Türk Tibb Dünyası Qurultayı keçirilib. 19 ölkənin səhiyyə nazirlərinin, nümayəndə heyətlərinin, tibb sahəsində tanınmış elm adamlarının iştirak etdiyi qurultayda ölkəmizi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, açılış mərasimində çıxış edən Türkiyənin səhiyyə naziri Kemal Memişoğlu XI Türk Tibb Dünyası Qurultayının əsas mövzusunun «İnnovativ səhiyyə» olduğunu bildirib: «Builki qurultay Türk dünyası ailəsindən olan alimlərin töhfələri ilə zənginləşdiriləcək və «İnnovativ səhiyyə» modeli çərçivəsində yerli səhiyyə texnologiyalarının inkişafı məsələlərinə toxunulacaq. Eyni zamanda, qurultay zamanı əczaçılıq, peyvəndlər, tibbi cihazlar və süni intellekt kimi səhiyyə məhsulları sahələrində dövlət-özəl tərəfdaşlıqlarının gücləndirilməsi ilə bağlı mühüm müzakirələr aparılacaq».

Tədbirdə çıxış edən dünyaşöhrətli alim, Nobel mükafatı laureatı Aziz Sancar Türk dövlətlərinin səhiyyə sahəsində böyük potensialını qeyd edərək, birgə elmi araşdırmaların aparılması təklifini irəli sürüb: «Mənim üçün ən önəmli amillərdən biri türk alimlərinin müasir elmdə ən ön sıralarda yer almasıdır».

Azərbaycanın səhiyyə naziri Teymur Musayev çıxışında XI Türk Tibb Dünyası Qurultayının yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb: «Burada iştirak edən qardaş ölkələrin hər birinin qlobal səhiyyə landşaftının təkmilləşdirilməsində özünəməxsus missiyası var. Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasəti və gərgin zəhməti sayəsində ölkəmiz hərtərəfli inkişaf edir. Səhiyyənin tərəqqisi daim diqqət mərkəzində saxlanılır və dövlətin əsas prioritetlərindən biridir».

Səhiyyə sahəsində beynəlxalq əməkdaşlığın və bu qurultayın əhəmiyyətini vurğulayan Teymur Musayev bildirib ki, 2014-cü ildən etibarən yüksək səviyyədə təşkil olunan Türk Tibb Dünyası qurultayları və burada aparılan müzakirələrin nəticələri milli səhiyyə sistemlərinin inkişafına mühüm töhfə verir. Müxtəlif ölkələrin səhiyyə nazirlərinin və alimlərinin iştirakı ilə yaradılan bu platforma türksoylu peşəkarlarla əlaqələr qurmaq, qarşılıqlı əməkdaşlıq imkanlarını müəyyənləşdirmək üçün möhkəm əsaslar yaradır. «Bu illər ərzində platformamız Türk dünyasının səhiyyə qurumları və alimləri arasında əlaqələrin möhkəmləndirilməsi və qarşılıqlı əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından vacib bir məkana çevrilib», - deyə nazir vurğulayıb.

Teymur Musayev Türk dünyasının tibbi qurumları arasında əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə bir sıra təkliflər səsləndirib. O bildirib ki, Türk dünyası üçün vahid tibbi-elmi məkanın yaradılması, birgə elmi tədqiqatların aparılması, tibbi təhsilin ümumi standartlarının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Nazir həmçinin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə nazirlərinə «Türktransplant» vahid informasiya sisteminin yaradılması təşəbbüsünə verdikləri dəstəyə görə təşəkkürünü ifadə edib.

«Fəxrlə deyə bilərəm ki, Azərbaycan transplantologiya sahəsində tarixi bir nailiyyət əldə edib. Ötən ay Qafqaz regionunda ilk dəfə olaraq, ən yüksək peşəkar səviyyədə ölkəmizdə ürək köçürülməsi əməliyyatı icra olunub», - deyə səhiyyə naziri qeyd edib.

Teymur Musayev müasir dövrün çağırışlarına da toxunaraq bildirib ki, bu çağırışlar əhalinin sağlamlığının və rifahının qorunması üçün dövlətlərdən daha çox səylər tələb edir. «İnformasiya texnologiyalarının sürətlə inkişaf etdiyi, sosial dəyərlərin dəyişdiyi və vətəndaş gözləntilərinin artdığı hazırkı mərhələdə ənənəvi tibbi xidmət yanaşmaları kifayət etmir. Dövlət siyasəti hərtərəfli, yüksək keyfiyyətli və bərabərhüquqlu tibbi xidmətin təmin edilməsini nəzərdə tutmalıdır», - deyə o vurğulayıb.

Nazir həmçinin müasir cəmiyyətin inkişaf dinamikasında baş verən dəyişikliklərə diqqət çəkib: «İnsanların ömür uzunluğu artır, xroniki xəstəliklərin yayılma tezliyi yüksəlir. Bununla yanaşı, iqlim dəyişiklikləri və digər amillər əhali üçün yeni sağlamlıq riskləri yaradır. Müasir dövrdə vətəndaşlar artıq tibbi xidmətlərin passiv istehlakçıları deyil, sağlamlıq qərarlarını sorğulamağa və təsir etməyə çalışan, sağlamlıq nəticələrinin birgə yaradıcısı olan səhiyyə sisteminin fəal iştirakçılarıdır».

Onun sözlərinə görə, texnologiyaların inkişafı xəstələrə məlumatlara operativ çıxış imkanı yaratmaqla yanaşı, eyni zamanda, manipulyasiya və yanlış məlumatlandırma risklərini də artırır: «Dezinformasiya ilə mübarizə milli səhiyyə sahəsində təhlükəsizliyin əsas komponentlərindən birinə çevrilməlidir. Hökumətlərin ictimai rəyə həssaslığı da eyni dərəcədə önəmlidir. Bu gün texnologiyaları yaxşı bilən və pasiyentyönümlü peşəkar tibbi kadrlara hər zamankından daha çox ehtiyac var. Dövlətlər bu məsələdə innovativ, rəqəmsal və inklüziv həllər kimi idarəetmə üsullarına üstünlük verirlər. Texnologiyaya əsaslanan, pasiyent mərkəzli, emosional və elmi cəhətdən yüksək hazırlıqlı tibb işçisinin olması zamanın tələbidir. Həmçinin Türk dünyasının vahid tibb elmi məkanının yaradılması, elmi tədqiqatların aparılması, vahid tibb təhsili standartlarının müəyyənləşdirilməsi, davamlı tibbi təhsilin təminatını birgə fəaliyyətimizin aparıcı istiqamətləri kimi görürük».





*(Ardı 8-ci səhifədə)*

# Türkiyədə XI Türk Tibb Dünyası Qurultayı keçirilib

*(Əvvəli 7-ci səhifədə)*

AZƏRTAC-ın verdiyi xəbərə görə, Teymur Musayev bildirib ki, Azərbaycanın səhiyyə sahəsində fəal əməkdaşlıq üzrə təşəbbüsləri Türk dünyası ölkələrində anlaşılır və dəstəklənir.

O belə qurultayların keçirilməsinin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə sistemlərinin yaxınlaşması, eləcə də qlobal tibbin inkişafına töhfə baxımından əhəmiyyətini vurğulayıb, qeyd edib ki, qurultayda dünyanın müxtəlif ölkələrindən təxminən 3 min nümayəndə, o cümlədən 40-dək səhiyyə müəssisəsi və tibb təşkilatının rəhbəri iştirak edir.

Səhiyyə naziri kimya üzrə Nobel mükafatı laureatı, professor Aziz Sancarın müzakirələrdə iştirakına xüsusi diqqət çəkərək, tanınmış alimin qurultaydakı çıxışını «Türk dünyasının Tibb Yol Xəritəsi» adlandırıb.

Nazir qeyd edib ki, Azərbaycan Türk dünyasının tibb qurultaylarında fəal iştirak edir və vaxtaşırı müxtəlif təşəbbüslərlə çıxış edir. Bu baxımdan, Teymur Musayev Azərbaycanın transplantasiya sahəsində məlumat mübadiləsi üzrə Ortaq Türk Platformasının yaradılması təşəbbüsünün həyata keçirilməsi istiqamətində atılan konkret addımları qürur mənbəyi adlandırıb. «Bu ideyanın həyata keçirilməsi üçün hazırda hüquqi və digər addımların atılması sevindirici haldır. Platformanın fəaliyyətinə çox yaxın gələcəkdə başlana bilər», - deyən nazir orqan transplantasiyasının, xüsusən də sümük iliyinin transplantasiyasının bütün Türk dünyası ölkələrinin səhiyyə sistemi üçün əhəmiyyət kəsb etdiyini vurğulayıb. O əlavə edib ki, yeni platforma sayəsində çarpaz orqan transplantasiyası əməliyyatları mümkün olacaq.






XI Türk Tibb Dünyası Qurultayı çərçivəsində Teymur Musayev həmkarları - Türkiyənin səhiyyə naziri Kemal Memişoğlu, Şimali Kipr Türk Respublikasının səhiyyə naziri Hakan Dinçyürek və Somalinin səhiyyə naziri Ali Haji Adam Abobakar ilə ikitərəfli görüşlər keçirib. Görüşlər zamanı xalqlarımız arasında münasibətlərin inkişafında dövlət başçılarının müstəsna rolu vurğulanıb. Tədbirin mahiyyətini qeyd edən nazirlər bildiriblər ki, belə qurultayların keçirilməsi ölkələrimizin səhiyyə sistemlərinin yaxınlaşması, eləcə də qlobal tibbin inkişafına töhfə baxımından olduqca əhəmiyyətlidir.

Qeyd edək ki, XI Türk Tibb Dünyası Qurultayı çərçivəsində hüceyrə və gen terapiyaları, iqlim dəyişikliyi və fəlakətlər zamanı uşaq və qadınların sağlamlığı, ənənəvi təbabət və elmi sübutlara əsaslanan təbabət arasında körpü, sosial media və uşaqların sağlamlığı kimi mövzuları əhatə edən panel sessiyalar keçirilib.

# Bakıda TDT-yə üzv ölkələrin tibb bacısı və mamalıq üzrə I Beynəlxalq elmi-praktik konfransı keçirilib

*(Əvvəli 6-cı səhifədə)*



Ola bilsin ki, bunu müasir kurikulumlara da inteqrasiya etmək olar. Türkiyədə buna maraq artıb və ənənəvi tibb adlandırılır».

Səfir həmçinin bildirib: «Ola bilsin ki, müalicədən daha çox, xəstəliklərin qarşısının alınması vacib və mənalıdır. Müalicə daha sonra gəlir. Bu məsələlərlə bağlı ictimaiyyətin məlumatlılığının artırılmasında tibb bacısı da mühüm rol oynayır. Hesab edirəm ki, bizim Mərkəzi Asiya və Qafqaz ölkələrindən həm müalicə, həm profilaktik tibb sahələrində öyrənəcəyimiz çox şey var. Ümid edirəm ki, bu cür tədbirlər davamlı olacaq və bilik mübadiləsinin artmasına kömək edəcək».

Sonra Özbəkistan səfiri Baxrom Aşrafxanov, Qazaxıstan səfiri Alim Bayel və Qırğızıstanın səfiri Maksat Mamıtkanov çıxış ediblər. Vurğulanıb ki, xalqlarımız arasında mövcud olan tarixi və mədəni ortaqlıqlar dövlətlər arasında əlaqələrin əsasını təşkil edir. Eyni zamanda, dövlət başçıları arasındakı dostluq əlaqələri bütün sahələrdə, o cümlədən səhiyyə sahəsində sıx əməkdaşlığın inkişafına və möhkəmlənməsinə əvəzsiz töhfə verir. Tədbirin yüksək səviyyədə təşkil olunduğunu qeyd edən səfirlər elmi-praktik konfransın işinə uğurlar arzulayıblar.

Daha sonra Türk dövlətlərinin inkişafını və Azərbaycanda səhiyyə sahəsində əldə olunan nailiyyətləri əks etdirən qısa videoçarxlar nümayiş olunub.

Beynəlxalq konfransda çıxış edən Türkiyənin Ege Universiteti Sağlamlıq elmləri fakültəsinin dekanı professor Esin Çeber Turfan Türk dövlətlərinin dünyanın gələcəyini formalaşdıracaq dövlətlər olduğunu deyib, bu kontekstdə TDT-də həmrəylik və dostluğu səhiyyə və təhsil sahələrində də bir-birimizə dəstək olaraq nümayiş etdirməli olduğumuzu söyləyib.

Türkiyədə mamalıq ixtisası üzrə təhsil prosesindən söz açan Esin ÇeberTurfan Türk dövlətlərinin hər birinin özünəməxsus proqramı olduğunu müşahidə etdiyini bildirib: "Siyasətdə, mədəniyyətdə olduğu kimi, mamalıq təhsilində də eyni dili inkişaf etdirsək, eyni proqramlara sahib olsaq, daha faydalı ola bilər. Nəticədə, Qazaxıstandan məzun olan mama Azərbaycanda, Türkiyədə məzun olan mama da Qırğızıstanda işləyə, magistratura və doktorantura təhsili ala bilər. Buna nail olmaq üçün ilk növbədə kurikulumlarımızı inteqrasiya etmək, sonra isə akkreditasiya ilə davam etmək çox səmərəli olardı. Həqiqətən də, bütün böyük və tarixi hadisələr kiçik addımlarla, kiçik niyyətlərlə başlayır. Bu çərçivədə ötən ilin noyabrında azərbaycanlı dostlarımız - 2 nömrəli Bakı Baza Tibb Kollecinin nümayəndələri Türkiyəyə mamalıq proqramı ilə tanış olmağa gəlmişdilər. Məqsədimiz ikili diplom proqramını həyata keçirməkdir».

«Hazırda Türkiyənin Ege Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universiteti arasında ikili diplom proqramı icra olunur. Niyə səhiyyə sahəsində də bu mümkün olmasın? Təbii ki, bu, bilik və bacarıqların əldə edilməsinə də töhfə verəcək. Odur ki, 2 nömrəli Bakı Baza Tibb Kolleci ilə ikili diplom proqramı həyata keçirməyi planlaşdırırıq», - deyə o əlavə edib.

Daha sonra çıxış edən Özbəkistan Səhiyyə Nazirliyinin Tibb bacısı işi üzrə baş mütəxəssisi Rixsi Salixocayeva, Qazaxıstanın «EMİLİ» Ali Tibb Kollecinin direktoru Nurjan Bijanov, Qırğızıstanın Bişkek Ali Tibb Kollecinin direktoru Çolpon Usubaliyeva və digərləri tədbirin Azərbaycanda keçirilməsindən məmnunluqlarını ifadə ediblər. Onların sözlərinə görə, bu cür tədbirlər Türk dövlətlərinin səhiyyəsində son illərdə əldə olunan nailiyyətlərin paylaşılmasına, həm də təcrübə mübadiləsinin aparılmasına imkan yaradır.

Çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib.

Daha sonra beynəlxalq elmi-praktiki konfransda panel sessiyalar keçirilib. Sessiyalarda «Azərbaycanda tibb bacısı (qardaşı) və mamalıq ixtisasları üzrə mütəxəssislərin hazırlığı və təhsilin inkişaf istiqamətləri», «Tibb bacısı və mamalıq təhsilində rəqəmsallaşma və süni intellektin rolu», «Mamalıq təhsilində keyfiyyətin təminatı: beynəlxalq standartlar» və digər məruzələr dinlənilib.

Sonra məruzələr ətrafında geniş müzakirələr aparılıb, mövzuya dair suallar cavablandırılıb.

Konfransın sonunda məruzəçilərə və xarici qonaqlara sertifikatlar təqdim olunub.

# Ukrayna və Azərbaycan səhiyyə sahəsində əməkdaşlığı genişləndirir

## *Bakıda bir sıra mühüm sənədlər imzalanıb*



**Ukraynanın səhiyyə naziri Viktor Lyaşkonun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana işgüzar səfəri çərçivəsində Səhiyyə Nazirliyində görüş keçirilib. Görüşdə Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuri Husyev və Azərbaycan - Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əlibala Məhərrəmzadə də iştirak ediblər.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, qonaqları salamlayan nazir Teymur Musayev ölkələrimiz arasında ikitərəfli əlaqələrin bir çox sahələrdə uğurla davam etdiyini diqqətə çatdırıb. Nazir müstəqilliyin bərpasından sonra Azərbaycan ilə Ukrayna arasında dostluq münasibətlərinin formalaşdığını və ikitərəfli əsasda səmərəli əlaqələrin qurulduğunu qeyd edib.

Prezident İlham Əliyevin milli səhiyyənin inkişafına böyük diqqət və önəm verdiyini vurğulayan nazir bu sahənin modernləşdirilməsi, rəqəmsallaşdırılması, insan kapitalının inkişaf etdirilməsi, səhiyyə iqtisadiyyatının gücləndirilməsinin Azərbaycan üçün prioritet məsələlərdən olduğunu bildirib.

Viktor Lyaşkonun rəhbərlik etdiyi geniştərkibli nümayəndə heyətinin ölkəmizə səfərinin mahiyyətinə diqqət çəkən Teymur Musayev deyib: «Səfər Azərbaycan ilə Ukrayna arasında səhiyyə sahəsində strateji tərəfdaşlığın möhkəmləndirilməsinə, əczaçılıq, onkologiya, pediatriya, kardiologiya və tibbi təhsil sahələrində birbaşa praktiki əməkdaşlığın inkişafına güclü təkan verəcək, eyni zamanda, iki ölkənin səhiyyə nazirlikləri arasında əməkdaşlığın genişləndirilməsinə yeni imkanlar yaradacaq».

Öz növbəsində Ukraynanın səhiyyə naziri Viktor Lyaşko ölkəsinə göstərdiyi humanitar yardımlara görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. Dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayan Viktor Lyaşko ölkələrimizin tarixi və ənənəvi dostluq münasibətlərinin mövcudluğunu diqqətə çatdırıb: «Heydər Əliyev Fondunun və Azərbaycan Səhiyyə Nazirliyinin dəstəyi ilə nazirliyin Sanatoriya-Kurort Bərpa Mərkəzində valideyn himayəsindən məhrum olan 7-17 yaşlı ukraynalı uşaqlar üçün reabilitasiya kursunun təşkili bunun əyani təsdiqidir».

Sonra iki ölkənin səhiyyə nazirlikləri arasında səhiyyə və tibb elmi sahəsində yenilənmiş Əməkdaşlıq haqqında Saziş imzalanıb. Sənədi Azərbaycanın səhiyyə naziri Teymur Musayev və Ukraynanın səhiyyə naziri Viktor Lyaşko imzalayıblar.

Əməkdaşlıq haqqında Sazişin mahiyyətini vurğulayan Teymur Musayev və Viktor Lyaşko qeyd ediblər ki, sənədin əsas məqsədi hər iki ölkənin səhiyyə sistemlərinin gücləndirilməsi və institusional çərçivənin genişləndirilməsi, əhalinin sağlamlığının inkişafına töhfə verilməsi, habelə əməkdaşlıq proqramlarının həyata keçirilməsidir. Eyni zamanda, sənəd xalq təbabətinin, əczaçılıq sənayesinin, tibbi təhsilin inkişafı sahələrində strateji tərəfdaşlığın daha da dərinləşdirilməsi üçün hüquqi çərçivə yaradır.

Səfər çərçivəsində Azərbaycanın Milli Onkologiya Mərkəzi ilə Ukrayna Milli Xərçəng İnstitutu, Azərbaycanın K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu ilə Ukraynanın «Oxmatdit» Uşaq Xəstəxanası, eləcə də kardioloji mərkəzlər arasında Əməkdaşlıq Memorandumları imzalanıb.

Həmçinin Azərbaycan Tibb Universiteti ilə Xarkov Milli Tibb Universiteti arasında tələbə və mütəxəssis mübadiləsi, birgə elmi tədqiqatların həyata keçirilməsi də daxil olmaqla yeni Əməkdaşlıq Memorandumu imzalanıb.

İmzalanan sənədlər iki ölkə arasında səhiyyə sahəsində uzunmüddətli və səmərəli strateji tərəfdaşlığın möhkəmləndirilməsinə xidmət edir.

# «Səhiyyə üzrə Qahirə Birgə Nazirlər Bəyannaməsi» qəbul olunub

**Qahirədə inkişaf etməkdə olan İslam ölkələrinin daxil olduğu D-8 qrupunun səhiyyə nazirlərinin birinci konfransı keçirilib. Azərbaycanı tədbirdə səhiyyə nazirinin müavini Rasim İsmayılovun başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.**

Nazirliyin mətbuat xidmətindən bildirildiyinə görə, konfrans çərçivəsində «Səhiyyə üzrə Qahirə Birgə Nazirlər Bəyannaməsi» qəbul olunub.



Sənəddə səhiyyənin fundamental insan hüququ və davamlı inkişafın təməl daşı olduğu vurğulanıb. Ümumi əhalisi 1,2 milyardı keçən üzv dövlətlər arasında regional səhiyyə təhlükəsizliyinə və hərtərəfli səhiyyə imkanlarına nail olmaq üçün əməkdaşlığın gücləndirilməsinin vacibliyi qeyd edilib.

Bundan başqa, sənəddə layihələri əlaqələndirmək və həyata keçirilməsini izləmək üçün «Daimi D-8 Səhiyyə İşçi Qrupu»nun yaradılması, erkən xəbərdarlıq sistemləri və beynəlxalq səhiyyə qaydalarının tətbiqi vasitəsilə pandemiyalara hazırlığın gücləndirilməsi, dərmanların, peyvəndlərin və səhiyyə texnologiyalarının yerli istehsalının dəstəklənməsi və regional təchizat zəncirlərinin inkişaf etdirilməsi, eləcə də monitorinq və rasional istifadə proqramları vasitəsilə antimikrob müqavimətinə (AMR) qarşı mübarizə məsələləri qeyd olunub.

Bundan əlavə, iqlim dəyişikliyinin sağlamlığa təsirlərinin aradan qaldırılması və dayanıqlı səhiyyə sistemlərinin qurulması, inteqrasiya olunmuş proqramlar vasitəsilə ana, uşaq və yeniyetmə sağlamlığının gücləndirilməsi, informasiyaları qorumaqla səhiyyənin rəqəmsal transformasiyasının (elektron qeydlər, teletibb, süni intellekt) sürətləndirilməsi məsələləri də «Qahirə Bəyannaməsi»ndə öz əksini tapıb.

# Səhiyyə Nazirliyinin nümayəndə heyəti COP 11-də iştirak edib

**İsveçrənin Cenevrə şəhərində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyası Tərəfləri Konfransının 11-ci sessiyası (COP11) keçirilib.**







Konfransın işində Azərbaycanın nümayəndə heyətinin tərkibində Azərbaycan Respublikasının BMT-nin Cenevrədəki Bölməsi və digər Beynəlxalq Təşkilatlar yanında Daimi Nümayəndəliyi, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) Baş direktoru Səbinə Babazadə, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Baş direktorunun Sanitariya-gigiyena məsələləri üzrə müavini Teymur Teymurov və İSİM-in İctimai sağlamlıq şöbəsinin müdiri Tofiq Musayev iştirak ediblər.

COP11 sessiyasında tütünlə mübarizə sahəsinə aid bir sıra aktual mövzuların açıqlanması və geniş müzakirəsi aparılıb.

İSİM-in direktoru Səbinə Babazadə ümumi müzakirələrdə çıxış edərək, ölkəmizdə tütünçəkmə ilə mübarizə istiqamətində görülən işlər barədə məlumat verib.

Konfrans çərçivəsində ÜST-nin Tütünə qarşı mübarizə haqqında Çərçivə Konvensiyasının həyata keçirilməsinə dair qlobal irəliləyişin xülasəsi təqdim olunub.

# İSİM-də Uşaq Günü keçirildi







**Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) 20 oktyabr - 20 noyabr «Uşaq hüquqları aylığı» çərçivəsində və 20 noyabr - Ümumdünya Uşaqlar Günü ərəfəsində Uşaq Günü keçirilib.**

Uşaqlara diqqətin daha da artırılmasını təbliğ edən tədbirin məqsədi İSİM-də, eləcə də digər səhiyyə müəssisələrində çalışan əməkdaşların övladlarının Mərkəzin fəaliyyəti və ölkəmizdə əhalinin tibbi maarifləndirilməsi, həmçinin sağlam həyat tərzi barədə məlumatlandırılması olub.

İSİM-in direktoru Səbinə Babazadə uşaqları salamlayaraq, ölkəmizdə yeni nəslin sağlam inkişafının, təhsilinin, mənəvi tərbiyəsinin daim diqqət mərkəzində saxlanıldığını, Mərkəz tərəfindən uşaqların sağlamlığının möhkəmləndirilməsi istiqamətində müxtəlif tədbirlərin təşkil olunduğunu vurğulayıb.

İSİM-in Səhiyyə kommunikasiyası şöbəsinin müdiri Laura Quliyeva Mərkəz tərəfindən uşaqların hüquq və sağlamlıqlarının müdafiəsi, onlara qarşı zorakılığın qarşısının alınması istiqamətində daim təbliğat aparıldığını, məktəb yaşlı uşaqlar üçün «Sağlam uşaq» portalı və mobil tətbiqinin hazırlanaraq istifadəyə verildiyini bildirib.

İSİM-in Səhiyyə kommunikasiyası şöbəsinin müdir müavini Sevil Qəmərli, psixoloqu Aysel Musayeva təqdimatla çıxış edərək, gözlərə qulluq, gigiyena qaydaları və uşaqların psixoloji sağlamlığının qorunması barədə tövsiyələr veriblər.

Cəmiyyətimizin ən həssas və kövrək təbəqəsi olan uşaqların fəal iştirakı ilə keçirilən Uşaq Günündə onlara öz hüquqları, o cümlədən sağlamlığın qorunması, gigiyena qaydaları, zərərli vərdişlərdən uzaq olmağın vacibliyi, sağlam qidalanmanın faydaları və digər mövzularla bağlı ətraflı məlumat verilib.

Əsl bayram ab-havasında təşkil edilən tədbirdə balacaların üzləri rəngbərəng rəsmlərlə bəzədilib, maraqlı və interaktiv oyunlar oynanılıb, birlik və mərhəməti simvolizə edən «Yaxşılıq zənciri» qurulub.

Daha sonra uşaqlar böyük ruh yüksəkliyi ilə «Sağlamlıq andı» içərək düzgün qidalanmaya, normal yuxu rejiminə və digər sağlam davranışlara üstünlük verəcəklərini, xoşbəxt gələcəyə dair arzularını dilə gətiriblər.

İSİM-də ənənəvi olaraq hər il təşkil olunan Uşaq Gününün iştirakçılarına sağlam qidalanmağı təbliğ edən hədiyyələr təqdim olunub, uşaqların rəngli əl izləri ilə «Xatirə ağacı» bəzənib.

**Hazırda Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinə ən çox müraciətlər böyrək köçürülməsi və sümük iliyi transplantasiyası ilə bağlı daxil olur. Xroniki böyrək çatışmazlığı ilə yaşayan insanlar üçün donor tapılması həyati əhəmiyyət daşıyır. Sümük iliyi transplantasiyası isə daha çox leykemiya, limfoma və aplastik anemiya kimi ağır hematoloji xəstəliklər zamanı həyata keçirilir. Bir çox hallarda xəstənin yeganə sağalma şansı məhz uğurlu transplantasiyadır.**



# Hazırda 1000 nəfərdən çox xəstə donor orqanı gözləyir

Bu fikirləri Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri Yeganə Abbasova nazirliyin rəsmi instaqram hesabında canlı yayım zamanı səsləndirib.

Onun sözlərinə görə, hazırda donor gözləyənlərin sayı 1000 nəfərdən çoxdur: «Uyğun donorun tapılması bəzən bir neçə ay, bəzi hallarda isə illər çəkə bilər. Buna görə də cəmiyyətin könüllü donor qeydiyyatına aktiv yanaşması çox vacibdir».

Yeganə Abbasova qeyd edib ki, son illərdə Azərbaycanda orqan donorluğu mövzusuna maraq nəzərəçarpacaq dərəcədə artıb, vətəndaşlar həm qanunvericilik, həm də donor olma prosedurları barədə daha çox məlumat əldə etməyə başlayıblar: «Aparılan maarifləndirici tədbirlər, media layihələri və aidiyyəti qurumların mütəxəssislərinin çıxışları donorluq mövzusu ilə bağlı məlumatlılığın yüksəlməsinə mühüm təsir göstərib. Bu cür məlumatlandırma işi cəmiyyətin məsələyə daha şüurlu və obyektiv yanaşmasına şərait yaradıb. Eyni zamanda, cəmiyyətdə humanizm, paylaşma və sosial dəstək dəyərlərinin gücləndirilməsi də diqqətəlayiqdir. İnsanlar daha çox anlayırlar ki, orqan bağışlamaq bir insanın həyatını xilas etmək və ona ikinci bir şans vermək deməkdir. Bu düşüncə, tədricən, daha geniş yayılır və qəbul olunur. Nəticə etibarilə, donor olmaq istəyənlərin sayı ildən-ilə artır. Gözlənilir ki, bu müsbət tendensiya gələcək illərdə də davam edəcək və cəmiyyətdə orqan donorluğuna münasibət daha da müsbət şəkildə formalaşacaq».



İdarə Heyətinin sədri bu yaxınlarda Qafqaz regionunda ilk dəfə olaraq Azərbaycanda icra edilən meyit donordan ürək transplantasiyası əməliyyatı barədə də danışıb: «Bu əməliyyat yüksək peşəkarlıqla icra olunub və Azərbaycan səhiyyə sisteminin tarixi uğurudur. Əməliyyata rəhbərlik edən həkimlərin düzgün koordinasiyası sayəsində, eyni zamanda, dəqiq diaqnostika və yüksək texnoloji imkanlarla proses təhlükəsiz şəkildə icra olundu. Xüsusilə nazirliyin Koordinasiya Mərkəzi, donoru və resipiyenti qəbul edən xəstəxanalar, logistika və reanimasiya komandaları arasında vaxtın düzgün idarəedilməsi və informasiya axınının qüsursuzluğu əməliyyatın taleyini müəyyən edib. Bu inteqrasiya olunmuş koordinasiya sayəsində 19 yaşlı bir gəncin həyatı xilas olunub».

Yeganə Abbasova donor ailəsinin göstərdiyi insanpərvərlik və yüksək humanizm addımını xüsusi vurğulayaraq deyib ki, bu nəcib təşəbbüs minlərlə insan üçün ümid mənbəyidir: «Həkimlər və tibb personalı donor ailəsinə dərin minnətdarlığını bildirir, bu fədakarlığın dəyərini xüsusi vurğulayırlar. Cəmiyyətimizi orqan donorluğu barədə daha çox məlumatlanmağa və məsuliyyətli qərarlar verməyə çağırırıq. Unutmayaq ki, donorluq haqqında vaxtında verilən qərar sabah kimin üçünsə həyat deməkdir».

Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzindən AZƏRTAC-a məlumat verilib ki, 2025-ci ilin 10 ayında böyrək üzrə 80-ə, qaraciyər üzrə 50-yə, sümük iliyi üzrə 30-a yaxın transplantasiya əməliyyatı icra edilib. Bildirilib ki, transplantasiya əməliyyatı həyata keçirilən xəstələrin vəziyyəti ümumilikdə qənaətbəxşdir.

Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi həmçinin transplantasiya növbəsində dünyasını dəyişən xəstələrlə bağlı sualı cavablandırıb. «Təəssüf ki, son illərdə təqribən 30-a yaxın qaraciyər, 10-dan çox isə böyrək transplantasiyası üçün namizəd olan xəstə müxtəlif səbəblərdən əməliyyat vaxtına çatmadan vəfat edib. Bu fakt insanların donorluğa könüllü razılıq verməsinin və ölkədə donor sayının artmasının nə qədər vacib olduğunu bir daha göstərir. Çünki hər donorun qərarı bir neçə insana yeni həyat bəxş edə bilər»,- deyə məlumatda vurğulanıb.

Mərkəzdən verilən məlumatda o da bildirilir ki, Azərbaycanda Kök Hüceyrə Bankının yaradılması istiqamətində işlər davam edir. Belə ki, Səhiyyə Nazirliyi İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə genetik analizlərin Xidmətlər Zərfinə daxil edilməsi və ildə 10 min Azərbaycan vətəndaşına genetik analizlər aparılmasının nəzərdə tutulması ilə bağlı müraciət ünvanlayıb. Bu addım Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin müraciəti əsasında atılıb. Genetik analizlərin Xidmətlər Zərfinə salınması təsdiqləndiyi təqdirdə, Kök Hüceyrə Bankının formalaşdırılmasına başlanılacağı bildirilib.

# Meyit donorun böyrəyi daha bir ailəyə ümid, xəstəyə yeni həyat verib

**Axşam saatlarında daxil olan təcili məlumat daha bir insanın həyatını dəyişib. Beyin ölümü keçirmiş şəxsin donor olaraq bağışlanan böyrəklərindən biri uzun illər dializ müalicəsi alan və orqan gözləyən xəstələrdən birinə - İsrafil Məmmədova tam uyğun gəlib.**



Bu barədə Səhiyyə Nazirliyindən verilən məlumatda bildirilir ki, nazirliyin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin operativ fəaliyyəti nəticəsində məlumat dərhal transplantasiya komandasına ötürülüb. Mərkəzi Klinikanın Transplantasiya şöbəsində transplantoloq-cərrah Tariyel Nadirovun rəhbərlik etdiyi cərrah və nefroloqlardan ibarət komanda yüksək peşəkarlıqla çalışaraq donor böyrəyini uğurla köçürüb. Əməliyyatdan cəmi bir həftə sonra İsrafil Məmmədovun vəziyyəti stabilləşib və o, uzun illər davam edən dializ yükündən azad halda evə buraxılıb.

«Həkim olaraq demək istəyirəm ki, orqan nəqli həqiqətən möcüzədir. Biz bu möcüzəyə hər gün şahidlik edirik. Donor ailələrinə, əməliyyatda və donorluq prosesində əməyi olan hər kəsə, xüsusilə də Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin kollektivinə və mərkəzin rəhbəri Yeganə Abbasovaya təşəkkür edirəm», - deyə Tariyel Nadirov bildirib.

«Donor ailəsinin göstərdiyi nəciblik, həkim komandasının peşəkarlığı və koordinasiya sisteminin operativliyi sayəsində daha bir insan sağlamlığına qovuşub. Bu uğurlu əməliyyat orqan donorluğunun cəmiyyət üçün nə qədər böyük dəyər daşıdığını xatırladır və bir daha göstərir ki, bir insanın verdiyi həyat hədiyyəsi başqa bir insanın yaşamasına imkan yaradır», - deyə məlumatda vurğulanıb.

# Ümumdünya Diabet Gününə həsr olunmuş tədbir keçirilib

**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) təşəbbüsü, Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), İSİM, Respublika Endokrinoloji Mərkəzi və Azərbaycan Diabet Liqasının birgə əməkdaşlığı ilə 14 Noyabr - Ümumdünya Diabet Gününə həsr edilmiş tədbir təşkil olunub.**





Nazirliyin mətbuat xidmətinin bildirdiyinə görə, tədbirdə çıxış edən İSİM-in direktoru Səbinə Babazadə Ümumdünya Diabet Gününün mahiyyəti haqqında ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, Ümumdünya Səhiyyə Təşkilatı və Beynəlxalq Diabet Federasiyasının (IDF) təşəbbüsü ilə 1991-ci ildən etibarən hər il noyabrın 14-ü Ümumdünya Diabetlə Mübarizə Günü kimi qeyd edilir.

AZƏRTAC xəbər verir ki, «İş yerində diabetlə mübarizə aparmaq üçün məlumatlı olun və daha çox cəhd edin» şüarı ilə keçirilən tədbirdə Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev diabet xəstəliyinin müalicəsində mütərəqqi yanaşmaların və müasir dərman vasitələrinin tətbiqinin vacibliyini vurğulayıb. Şöbə müdirinin bildirdiyinə görə, son 5 ildə şəkərli diabet xəstələrinin sayında 1,5, 10 ildə isə 2 dəfədən çox artım qeydə alınıb. Onların arasında ikinci tip şəkərli diabet xəstələri üstünlük təşkil edirlər. Onun sözlərinə görə, 2020-ci ildə 25 min pasiyentdə şəkərli diabet aşkarlanıb. 2024-cü ilin statistikasına




əsasən, yeni diaqnoz qoyulan, ilk dəfə qeydiyyata alınan xəstələrin sayı 33,5 minə bərabər olub. Ümumilikdə, qeydiyyatda olan xəstələrin sayı 2020-ci ildə 287 min, 2024-cü ilin sonunda isə 423 min təşkil edib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədrinin müşaviri Nelli Veysova çıxışında bildirib ki, şəkərli diabet qeyri-infeksion xəstəliklər arasında kardiovaskulyar və onkoloji xəstəliklərdən sonra ölüm səbəbinə görə üçüncü yeri tutur. O qeyd edib ki, xəstəlik nə qədər erkən aşkarlanarsa və profilaktikası həyata keçirilərsə, ağır fəsadların qarşısını bir o qədər erkən almaq olar. Vaxtında müalicə olunmayan şəkərli diabetin fəsadlaşmalarının müalicəsinə sərf olunan xərc şəkərli diabetin profilaktika və müalicəsinə sərf edilən vəsaitdən çox olur.

Öz çıxışlarında Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Milli Məclisin deputatları Məlahət İbrahimqızı və İlham Məmmədov, TƏBİB-in İcraçı direktorunun müavini Anar İsrafilov, Respublika Endokrinoloji Mərkəzinin direktoru Kəmalə Ağayeva və digərləri Azərbaycan vətəndaşının sağlamlığının dövlətin daim diqqət mərkəzində olduğunu vurğulayıblar.

Sonra məruzələr ətrafında geniş müzakirələr aparılıb, mövzuya dair suallar cavablandırılıb.

Qeyd edək ki, Ümumdünya Diabetlə Mübarizə Günü Ümumdünya Səhiyyə Təşkilatı və Beynəlxalq Diabet Federasiyasının təşəbbüsü ilə 1991-ci ildən etibarən qeyd olunur. 2007-ci ildən həmin gün BMT-nin himayəsi altında keçirilir.

# ADHTİ ilə Pekin Çin Təbabəti Universiteti arasında Anlaşma Memorandumu imzalanıb

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib, orada Ənənəvi Çin Təbabəti və tibb təhsili üzrə təcrübələrlə tanış olub.**





Nazirliyin mətbuat xidmətinin verdiyi məlumata görə, nümayəndə heyəti Pekində bir sıra görüşlər keçirib. Çin Xalq Respublikasının Ənənəvi Çin Təbabəti Milli Administrasiyasının rəhbərliyi ilə görüşdə Ənənəvi Çin Təbabətinin tətbiqi, eləcə də bu sahədə beynəlxalq əməkdaşlıq imkanları müzakirə olunub. Azərbaycan və Çin arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin mövcudluğu vurğulanıb və gələcək əməkdaşlığın genişləndirilməsi üçün razılıq əldə olunub.

Azərbaycan nümayəndə heyəti Pekin Çin Təbabəti Universitetinin klinikasının fəaliyyəti ilə də tanış olub. ADHTİ-nin rektoru professor Nazim Pənahov və Pekin Çin Təbabəti Universitetinin rektoru Tang Zhishu arasında görüş keçirilib və Anlaşma Memorandumu imzalanıb.

Daha sonra Pekin Universiteti Tibb Elmləri Mərkəzində keçirilən görüşdə davamlı tibbi təhsil, elmi tədqiqatlar, rezident və müdavim mübadiləsi üzrə əməkdaşlıq məsələləri müzakirə edilib. Tərəflər birgə işçi



qrupunun yaradılması və gələcəkdə əməkdaşlıq memorandumunun imzalanması barədə razılığa gəliblər.

Pekin Universiteti Xalq Xəstəxanasında keçirilən görüşdə xəstəxananın səhiyyə idarəçiliyi modeli, tibb xidmətlərinin təşkilində şaxələnmə mexanizmləri və travmatologiya sahəsi ilə tanışlıq baş tutub.

Keçirilən görüşlər Azərbaycan və Çin arasında tibbi təhsil, ənənəvi təbabət və səhiyyənin təşkili sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açır.







## Başsağlığı

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin kollektivi səhiyyə naziri Teymur Musayevin atası **YUSİF MUSAYEVİN** vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsi və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycanın səhiyyə ictimaiyyəti tanınmış həkim, səhiyyə təşkilatçısı, səhiyyə sahəsində beynəlxalq münasibətlər üzrə mütəxəssis, uzun illər Səhiyyə Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə rəhbərlik etmiş **SAMİR AĞASƏF OĞLU ABDULLAYEVİN** vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi səhiyyə nazirinin müavini İlqar Qasımovun anası **VALİDƏ QASIMOVANIN** vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsi və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

«Tibb qəzeti»nin kollektivi səhiyyə naziri Teymur Musayevin **ATASININ** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

«Tibb qəzeti»nin kollektivi səhiyyə nazirinin müavini İlqar Qasımovun **ANASININ** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

«Tibb qəzeti»nin kollektivi **SAMİR AĞASƏF OĞLU ABDULLAYEVİN** vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

## Ötən ay 77 aptekdə yoxlama aparılıb




**Bu ilin oktyabr ayı ərzində Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən ümumilikdə 77 aptekdə yoxlama aparılıb.**

Mərkəzdən verilən məlumata görə, onlardan 6-sı Bakıda, 71-i isə ölkənin digər şəhər və rayonlarında yerləşən apteklərdə həyata keçirilib.

Aparılmış planlı və plandankənar yoxlamalar nəticəsində 77 müxtəlif nöqsan aşkar olunub, həmin hallarla bağlı İnzibati Xətalar Məcəlləsinin altı maddəsi üzrə 30 protokol tərtib edilib.

## Respublika QİÇS-lə Mübarizə Mərkəzi stomatoloqlara təlimlər keçir

**Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzi (RQMM) Qlobal Fondun dəstəyi ilə 2025-ci ilin təlim proqramı çərçivəsində növbəti təlimlərə başlayıb. Dörd günlük təlimlər stomatoloqlar, Bakı şəhəri üzrə poliklinikaların rəhbər heyəti, qadın məsləhətxanalarının həkim mama-ginekoloqları və Bakı şəhərinin orta məktəblərində çalışan biologiya müəllimləri üçün nəzərdə tutulub.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, ilk təlimə Azərbaycan Tibb Universitetinin Stomatologiya kafedrasının əməkdaşları, Ədliyyə Nazirliyinin Tibb xidmətinin nümayəndələri, eləcə də Bakı və regionlarda fəaliyyət göstərən özəl sektor stomatoloqları cəlb edilib. Təlimin ilk günündə onlara «Stomatoloji xidmətlərin təşkili zamanı İİV infeksiyasının idarə olunmasına dair müasir yanaşmalar» mövzusunda peşəkar treninq keçirilib.

Mərkəzin direktoru Famil Məmmədov Azərbaycanda İİV infeksiyası ilə bağlı mövcud vəziyyət və həyata keçirilən tədbirlərdən danışaraq bildirib ki, aparılan məqsədyönlü əksepidemik tədbirlər nəticəsində regiondakı digər ölkələrlə müqayisədə Azərbaycanda bu virusun yayılmasının dəfələrlə aşağı səviyyədə saxlanılmasına nail olunub.

İştirakçılara İİV/QİÇS-in yoluxma yolları, yayılması, profilaktik proqramların vacibliyi barədə məlumat verilib, dünyada və Azərbaycandakı mövcud epidemioloji vəziyyət təhlil edilib, hədəfə çatmaq üçün görüləcək işlər müzakirə olunub.

**Baş redaktor:**
N.MƏCİDOVA

**Baş redaktorun müavini:**
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

**Təsisçi:**
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

**Ünvan:**
Həsən bəy Zərdabi küç., 96.
3-cü mərtəbə, 6-cı otaq

Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru
www.tibbqazeti.az

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*